# Lənkəranda "Yaşıl dünya naminə ekofestival" keçirilib













**Lənkəran Şəhər İcra Hakimiyyəti (ŞİH), Dövlət Turizm Agentliyinin Lənkəran Regional Turizm İdarəsi və Lənkəran Dövlət Peşə Mərkəzinin birgə təşkilatçılığı ilə Qala xiyabanında "Yaşıl dünya naminə ekofestival" keçirilib.**



Rayonda fəaliyyət göstərən sənaye, kənd təsərrüfatı emalı müəssisələri, milli parklar, mədəniyyət, idman, turizm, orta və peşə təhsili müəssisələri hər biri öz pavilyonları ilə festivala qatılıblar. Festivalda yerli istehsal və emal müəssisələrinin çoxçeşidli məhsulları, ayrı-ayrı təsərrüfatlarda yetişdirilən ekoloji cəhətdən təmiz məhsullar, milli və yerli mətbəx nümunələri, sitrus meyvələri, çay, yerli sənətkarların əl işlərindən ibarət məhsullar nümayiş olunub, "Nənələr" və "Babalar" folklor rəqs qrupları və digər musiqi kollektivlərinin ifasında bədii proqram təqdim edilib. Festival çoxsaylı yerli və xarici turistlər tərəfindən böyük maraqla qarşılanıb. Onlar yerli mədəniyyət, folklor, incəsənət və mətbəximizin nümunələri ilə tanış olublar.

Ekofestivalı ziyarət edən şəhər rəhbərliyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının ölkəmizdə keçirilməsinin əhəmiyyəti barədə danışıb. Bildirilib ki, ölkəmizin zəngin və həssas biomüxtəlifliyinin mühafizəsi, yaşıllıqların artırılması, bərpası və ətraf mühitin qorunması naminə görülən işlərdə fəal iştirak etmək və ətraf mühitin mühafizəsinə daha diqqətlə yanaşmaq olduqca vacibdir.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***